*1 oktyabr—Beynəlxalq Ahıllar Günüdür*

# *Ahıl insanlar müdrik adamlar hesab olunurlar*

Son illər ərzində BMT-nin inkişaf proqramında ahıllar problemi geniş yer tutur. On üç il bundan əvvəl İspaniyanın paytaxtı Madrid şəhərində BMTnin ahıllar üzrə II Ümumdünya məclisinin keçirilməsi də buna misaldır. Bu tədbirdə bəyan edildi ki, ahıllar da cəmiyyətdə gedən proseslərdə iştirak etməli və onlar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır. Eyni zamanda onlara ehtiram göstərilməli, həyat təcrübəsi yeni nəsillərə çatdırılmalıdır. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək qədim zamanlardan adətdir. Onlara o dövrdə də cavanlar da, böyüklər də hörmətlə yanaşıb, müsbət mənada fikirləri ilə hesablaşıblar.

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar ili elan olunmuşdur.

Bu məsələyə respublikamızda da ciddi diiqqət yetirilir. 2001-ci il iyunun 22-də «Ahıllara sosial xidmət haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları ahıl sayılır.

1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i Respublikamızda «Beynəlxalq Ahıllar Günü» kimi qeyd olunur. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq,ehtiyaclarını müəyyənləşdirərək imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir. Ahıllar günü ərəfəsində respublikamızın şəhər və rayonlarında icra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşlarfın ehtiyaclarını öyrənməklə, onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, mədəni-kütləvi tədbirlər həyata keçirirlər. Həmin tədbirlərdə Respublika üzrə 10 minlərlə ahıl və əlil vətəndaş bayram süfrələrinə dəvət olunur, onlara ərzaq paylanır,maddi yardım göstərilir.

Qəbələdə də ahıllar, ağbirçəklər unudulmur, daim qayğı ilə əhatə olunurlar. Bu sahədə rayon əmək və əhalinin sosial müdafiəsi mərkəzinin, ağsaqqallar şurasının həyata keçirdikləri tədbirlər təqdirəlayiqdir. Əmək və əhalinin sosial müdafiəsi mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri də tək ahıl vətəndaşlara evdə sosial xidmətlərindən ibarətdir. Hazırda rayonun şəhər, qəsəbə və kəndlərində 63 nəfər tək, ahıl vətəndaş yaşayır. Onlar əmək və əhalinin sosial müdafiəsi mərkəzinin tərkibində fəaliyyət göstərən sosial-məişət xidməti sektoru tərəfindən evlərdə xidmətə götürülmüşdür. Sektorun işçiləri vaxtaşırı tək ahıl kateqoriyadan olan vətəndaşların evlərinə gedir, onların hər bir problemi, gündəlik qayğıları ilə yaxından tanış olurlar. Lazımi işlərdə onlara həm mənəvi,- həm də maddi cəhətdən dayaq dururlar. Ahıl adamların sanatoriya və kurotlara göndərilməsi gündəmdə duran məsələlərdən biridir. Əhalinin Sosial müdafiəsi mərkəzi bu sahədə ehtiyacı olanları göndərişlərlə təmin edir, Bayram günlərində imkandaxilində onlar üçün bayram süfrələri hazırlayır, müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirir. Bu cür tədbirlər ahıl vətəndaşlarda xoş ovqat yaradır.

**Nərgiz ABDURƏHİMOVA,**
**rayon ƏSMM-nin sosial məişət xidməti sektorunun müdiri.**

# *Qəbələdə səmti müəyyən etmə idman növü üzrə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin qapalı çempionatı başa çatmışdır*




Bu günlərdə Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Klubunun təşkilatçılığı ilə Qəbələ rayonunda keçirilən səmti müəyyən etmə idman növü üzrə III Qapalı Çempionat başa çatmışdır. Rayondakı meşə massivində keçirilən yarışın bağlanış mərasimində Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Klubunun rəisi, polkovnik Füzuli Musayev çıxış edərək FHN-nin qurumları arasında keçirilən yarışa 23 komanda olmaqla, 100-dən çox idmançının qatıldığını bildirmişdir. Üç gün davam edən yarışda komanda birinciliyi ilə yanaşı, iştirakçılar şəxsi birincilik üzrə də bacarıqlarını nümayiş etdirmişlər.Yekunda qaliblərə medal, diplom və qiymətli hədiyyələr təqdim olunmuşdur.

**«Qəbələ».**

# Yeniçağ.az Analitik İnformasiya Agentliyinin baş redaktoru Aqil Ələsgərova Surəti: digər kütləvi informasiya vasitələrinə, təkzib məktubu

Nəzərinizə çatdırıram ki, 13.09.2015-ci il tarixdə axşam saatlarında Qəbələ rayonunda baş vermiş yolnəqliyyatı hadisəsi ilə bağlı zərərçəkənlər və onların səbəbkarı barədə Sizin qəzetinizdə gedən yazılar yalan və əsassız məlumatlardır. Bizim adımızdan bir neçə kütləvi informasiya vasitələrində dərc olunan yazılarla bağlı bildirmək istəyirəm ki, baş vermiş hadisə ilə bağlı mənim və mənim qohumlarımın heç bir əlaqəsi yoxdur.

Belə ki, mənim və digər qohumlarımın tərəfindən hər hansı bir sayta məlumat verilməyib və bizim adımızdan yanlış məlumat dərc edilmişdir. Eyni zamanda baş vermiş hadisəyə yol polisi səbəbkar olmamış və onların baş vermiş hadisə ilə bağlı heç bir əlaqəsi yoxdur.

Sizin saytınızda dərc olunan yazıları təkzib edərək xahiş və tələb edirəm ki, mənim və mənim qohumlarımın adından müxtəlif mövzuda yazılar dərc etməyəsiniz.

***İldırım SƏMƏDOV,***
***Qəbələ rayon Həmzəli kənd sakini.***
21.09. 2015.

# *Məntəqələr seçkiyə hazırdır*

Qəbələ rayonunda 78 seçki məntəqəsi təşkil ounub. Bu məntəqələrdən 54-ü 116 saylı Qəbələ seçki dairəsinin, 24-ü isə 117 saylı Oğuz-Qəbələ seçki dairəsinin tərkibindədir. Məntəqələrin hamısı cari təmir olunmuş, lazımi avadanlıqlarla təmin edilmişdir. Məntəqələrin ərazisində quraşdırılmış təşviqat lövhələri hamısı yararlıdır. Ehtiyac olan lövhələr rənglənmişdir.

Seçkilərdə aşkarlığı təmin etmək məqsədilə 11 seçki məntəqəsində veb kameralar quraşdırılıb işlək vəziyyətə gətirilmişdir.

Seçki ərəfəsində xəstələnən, yaşayış yerini dəyişən və digər səbəblərdən fəaliyyətini davam etdirmək imkanında olmayan məntəqə üzvləri yeniləri ilə əvəz olunmuşdur. Hazırda Qəbələ rayonundakı seçki məntəqələrinin komissitya üzvlərinin tərkibində 5 siyasi partiyanın nümayəndələri fəaliyyət göstərir.

Seçicilərin siyahıya alınması, tərkibinin öyrənilməsi və sair məsələlər də Azərbaycan Respublikası Seçki Məcəlləsinə uyğun aparılmışdır. Hazırda seçicilərə bildirişlərin göndərilməsi prosesi davam edir. Seçkilərə 7 gün qalmışadək bildirişlərin çatdırılması prosesi başa çatacaqdır.

**“Qəbələ”.**